● Yad et məni

# "Cənnətim Qarabağ"

**"Şuşa ili" çərçivəsində Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi tərəfindən həyata keçirilən "Cənnətim Qarabağ" adlı layihə davam edir.**



Layihə çərçivəsində növbəti təqdimat Azərbaycan realist nəsrinin görkəmli nümayəndəsi sayılan, milli dramaturgiyamızın inkişafında, peşəkar teatrımızın təşəkkülündə və tərəqqisində müstəsna rolu olan yazıçı-dramaturq, nasir və ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevə həsr olunub.

Əbdürrəhim bəy Əsəd oğlu Haqverdiyev 1870-ci il mayın 17-də Şuşanın Ağbulaq kəndində bəy ailəsində dünyaya göz açıb. 1890-cı ildə Şuşa şəhərindəki altıillik real məktəbini bitirdikdən sonra Tiflis Real Məktəbinin sonuncu sinfinə daxil olub. 1891-ci ildə Peterburqa gələrək imtahanla Yol Mühəndisləri İnstitutuna qəbul olunub. O, səkkiz il burada tədris dərslərindən əlavə universitetin Şərq fakültəsində də azad mühazirələr dinləyib. Hələ tələbəlik illərində bir sıra pyeslər yazan Əbdürrəhim bəy Haqverdiyev Şuşaya qayıdan kimi müxtəlif tamaşalar təşkil edərək öz vətənində teatrın təşkili və inkişafı üçün çalışıb. Ədibin xatirələrində yazdığına görə, 1884-cü ildə Şuşada tamaşaya qoyulan Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" komediyası onun ədəbi yaradıcılığa başlamasına təsir edən ilk amillərdən biri olub. Belə ki, teatra yeni qədəm qoyan gənc yazıçı 1897-ci ildə Şuşada dahi şair Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında "Məcnun Leylinin qəbri üstündə" musiqili muğam səhnəciyini hazırlayıb.

1901-ci ildə Şuşadan Bakıya gələn ədib "Bakı müsəlman dram truppasını" yaradaraq milli teatrda ilk baş rejissor kimi tarixə düşür. Maarifpərvər ziyalı olaraq Əbdürrəhim bəy xalqın maariflənməsində teatrın rolunun əvəzsiz olduğunu hesab edərək belə yazırdı: "Xalqla danışmaq, onu mədəniyyətə və maarifə çağırmaq üçün ən yaxşı vasitə teatr səhnəsidir".

Olduqca zəngin həyat yolu keçən Əbdürrəhim bəy Haqverdiyev istər inqilabdan əvvəl, istərsə də sovet hakimiyyəti illərində yazdığı bütün əsərlərində ailə tərbiyəsi, əxlaq, təhsil kimi məsələlərin vacibliyinə toxunub. Onun bir sıra hekayə və dramlarında gənc nəslin mənəviyyatının, dünyagörüşünün formalaşması motivləri mərkəzdə durur. Milli-mənəvi dəyərlər, vətənə sevginin aşılanması ədibin ən ali məqsədlərindən idi. Onun "Yeyərsən qaz ətini, görərsən ləzzətini", "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Köhnə dudman", "Baba yurdunda", "Ac həriflər", "Millət dostları", "Qırmızı qarı", "Padşahın məhəbbəti", "Ağac kölgəsində", "Qoca tarzən", "Ədalət qapıları", "Səhnə qurbanı", "Məşədi Qulam qiraət öyrənir", "Qadınlar bayramı", "Kamran", "Sağsağan", "Yoldaş Koroğlu", "Çox gözəl", "Daşçı", "Şeyx Şaban", "Mirzə Səfər", "Bomba", "Pir", "Marallarım" silsilə hekayələri, "Xortdanın cəhənnəm məktubları" və digər əsərləri klassik irsimizin nadir incilərindəndir.

Ədəbiyyat və incəsənət sahəsindəki xidmətləri nəzərə alınaraq 1928-ci ildə Ə.Haqverdiyevə "Əməkdar incəsənət xadimi" fəxri adı verilib. O, 1933-cü il dekabrın 11-də Bakıda vəfat edib.

Bu gün ədibin əsərləri təkcə Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində müxtəlif dillərdə çap olunur.

Azərbaycan.- 2022.-27 noyabr.- S.7.